**UOT 338.43**

***Qəfər Müşfiq oğlu BAĞIROV***
***doktorant, Bakı Biznes Universiteti,***
***E-mail: bagirov.qafar@hotmail.com***

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQRAR SAHƏDƏ SAHİBKARLIĞIN İNKİŞAFININ SƏCİYYƏVİ CƏHƏTLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi -** işğaldan azad edilmiş ərazilərdə (İAEƏ-də) aqrar sahədə sahibkarlığın inkişafının səciyyəvi xüsusiyyətlərini tədqiq etmək və sahibkarlığın inkişafına təsir edən amilləri müəyyənləşdirmək.

**Tədqiqatın metodologiyası** - tədqiqat işində müqayisəli təhlil, qruplaşdırma, ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** aqrar sahə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır. Bu baxımdan İAEƏ-də aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsi və bu zaman sahibkarlığın inkişafının səciyyəvi cəhətlərinin nəzərə alınması vacib şərtlərdən biridir.

**Tədqiqatın nəticələri** - İAEƏ-də aqrar sahədə sahibkarlığın inkişafının səciyyəvi cəhətlərini müəyyənləşdirmək, sahibkarlığın inkişafına təsir edən destruktiv amillərin aradan qaldırılması ilə bağlı tövsiyə və təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın örijinallığı və elmi yeniliyi** - aqrar sahədə istehsal və innovasiya sahibkarlığının formalaşdırılması və inkişafı ilə bağlı mövcud problemlərin aradan qaldırılması, İAEƏ-də aqrar sahədə əlverişli sahibkarlıq mühitinin formalaşdırılması üçün əsas prinsiplər və prioritetlər müəyyənləşdirilmişdir.

***Açar sözlər: aqrar sahə, aqrar sahədə sahibkarlıq fəaliyyəti, aqrar sahədə sahibkarlıq mühiti, aqrar sahədə sahibkarlığın inkişafının səciyyəvi cəhətləri.***

## *Giriş*

Aqrar sahə əhalinin ərzaq məhsullarına, sənayenin isə kənd təsərrüfatı xammalına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynamaqla yanaşı, eyni zamanda dövlətin strateji məqsədlərinin reallaşdırılmasına da xidmət edir. Hər bir ölkənin beynəlxalq münasibətlər sisteminə inteqrasiyasi prosesində iqtisadi təhlükəsizliyin təmin edilməsi ön plana çəkilir. Bu baxımdan iqtisadi təhlükəsizliyin ən mühüm formalarından biri kimi ərzaq təhlükəsizliyin qorunub saxlanılması və beynəlxalq münasibətlər sistemində ölkənin ərzaq müstəqilliyininin təmin edilməsi aqrar sahənin inkişafından və eləcə də bu sahədə iqtisadi səmərəlilik prinsiplərinin reallaşdırılmasından əhəmiyyətli dərəcədə asılıdır. Beynəlxalq münasibətlər sisteminə uğurlu inteqrasiya prosesinin reallaşdığı hazırkı şəraitdə müstəqilliyini əldə etmiş Azərbaycan Respublikasında da kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsi istiqamətində zəruri dövlət proqramları həyata keçirilir və bütün bunlar nəticə etibarilə həm kənd təsərrüfatında iqtisadi artımın təmin edilməsinə və həm də məşğulluğun təmin edilməsinə, işsizliyin qarşısının alınmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

**Aqrar sahədə çoxfunksiyalı sahibkarlığın inkişafı.** Kənd təsərrüfatı əmtəə istehsalçılarının, daha doğrusu sahibkarlıq subyektlərinin sərəncamında olan torpaq sahələrinin həcminin məhdudluğu mahiyyət etibariylə növbəli əkin sisteminin tətbiqini reallaşdırmağa imkan vermir və belə bir şəraitdə kənd təsərrüfatında yüksək məhsuldarlıq imkanlarında bəhs etmək mümkün deyildir.

Aqrar sahədə sahibkarlıq fəaliyyəti əsas etibarilə çoxfunksiyalı bir modelə əsaslanır. Belə ki, iqtisad elmlər doktoru, profesor İslam İbrahimovun fikrincə, sahibkarlıq fəaliyyətinin müxtəlif növləri mövcuddur və hər hansı fəaliyyət bu və ya digər dərəcədə məhsul və xidmətlər istehsalı, mübadiləsi, məhsulun bölgüsü və istehlakı ilə sıx əlaqədardır. Aqrar sahədə sahibkarlıq fəaliyyə-

tinin aşağıdakı növləri fərqləndirilir. Bura istehsal sahibkarlığı, kommersiya sahibkarlığı, maliyyə sahibkarlığı və digər sahə və xidmət sahibkarlığı şamil edilir. İbrahimov hesab edir ki, istehsal sahibkarlığı sahibkarlıq fəaliyyətinin ən aparıcı növü hesab olunur. Burada əmtəə istehsalı həyata keçirilir, xidmətlər göstərilir, müəyyən mənada dəyər yaradılır. Bazar iqtisadiyyatının ilkin dövrlərində kommersiya sahibkarlığı daha geniş yayılmışdır. Kommersiya sahibkarlığı maliyyə əməliyyatını xarakterizə edir. Sahibkarlığın bu növündə fəaliyyətin nəticəsi daha tez formalaşır. Bu sfera son zamanlar fərdi və xüsusi sahibkarlığın inkişafı ilə əlaqədar demək olar ki, tam mənası ilə genişlənmişdir. Aqrar sahədə torpaq və əmlak payı almış sahibkarlar istehsal və xidmətlərlə sərbəst məşğul olurlar. Onlara lazımi peşə və iqtisadi biliklərin verilməsi, məsləhət və informasiyanın əldə edilməsi üçün belə xidmətlər yaradılır, dövlət tərəfindən müəyyən proqramlar çərçivəsində dəstəklənirlər. [2, s.3 1-32].

Fikrimizcə İ.H.İbrahimov fikirlərində tamamilə haqlıdır. Belə ki, bilavasitə maddi istehsal sahəsi hesab olunduğundan aqrar sahədə məhz istehsal sahibkarlığının inkişafı daha xarakterik cəhətlərdən biri hesab olunur. Məhz istehsal sahibkarlığının inkişaf etdirilməsi hesabına kənd təsərrüfatında məhsul istehsalı, eləcə də emal sənayesində məhsul istehsalı, yeyinti məhsullarının istehsalı həyata keçirilir ki, bu da ən azı daxili bazarın tələbatının ödənilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

**Aqrar sahədə sahibkalıq fəaliyyətinin inkişaf xüsusiyyətləri.** Aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı prosesləri nəzərdən keçirərkən ilk növbədə aqrar sahədə, o cümlədən kənd təsərrüfatında əsas istehsal vasitəsinin özünəməxsus xüsusiyyətlərə malik olması nəzərə alınmalıdır. Kənd təsərrüfatında başlıca istehsal vasitəsi kimi torpaq əsas rol oynayır. Bu baxımdan torpağın münbitliyinin yüksəldilməsinə yönəldilmiş zəruri tədbirlərin həyata keçirilməsi mahiyyət etibarilə məhsuldarlığın artırılmasında əhəmiyyətli rol oynayır. İstər əvvəlki təsərrüfatçılıq sistemində və istərsə də bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsinə istiqamətlənmiş zəruri tədbirlərin gerçəkləşdirilməsi ilk növbədə torpağın münbitliyinin qorunub saxlanmasından və daha da yüksəldilməsindən ibarət olmuşdur.

Torpaq kənd təsərrüfatında istehsal vasitəsi olaraq yeganə vasitədir ki, iqtisadi sistemin dəyişilməsindən asılı olmayaraq demək olar ki, tam mənası ilə məhsul istehsalının həyata keçirilməsində özünəməxsus təzahürlərini doğurur. Odur ki, aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsi, xüsusilə istehsal sahibkarlığının inkişaf etdirilməsində torpağın xüsusiyyətləri, xüsusilə onun münbitliyinin artırılmasına xüsusi diqqət yetirilməli və məhsuldarlığın artırılması ön plana çəkilməlidir. Nəzərə almaq lazımdır ki, iqtisadiyyatın digər sahələrində də sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı proseslərdə torpaq resursları əhəmiyyətli rol oynayır. Həmin sahələrdə torpaq resursları demək olar ki, məkan funksiyalarını yerinə yetirir. Lakin kənd təsərrüfatında isə torpaq resurslarının rolu ilk növbədə onun münbitliyi ilə xarakterizə edilir. Torpağın münbitliyi aşağı olduqda kənd təsərrüfatında istehsal edilən məhsulllların həcmi də azalır və daha doğrusu, məhsuldarlığın səviyyəsi aşağı düşür.

Aqrar sahədə, o cümlədən kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsinin xarakterik xüsusiyyətlərindən biri də kənd təsərrüfatı məhsulları istehsalının təbii iqlim şəraitindən əhəmiyyətli dərəcədə asılı olması ilə bağlıdır. İstər kiçik sahibkarlıq qurumları, istərsə də orta və iri təsərrüfatçılıq qurumları kənd təsərrüfatında məhsul istehsalı prosesini həyata keçirərkən təbii iqlim şəraitində baş verən prosesləri nəzərə almalıdırlar. Xüsusilə kənd təsərrüfatında bitkiçilik sektoru təbii iqlim şəraitindən bilavasitə asılıdır. Təbii iqlim şəraitində baş verən destruktiv tendensiyalar nəticə etibarı ilə məhsuldarlığın aşağı düşməsinə gətirib çıxara bilir. Bu isə onunla bağlıdır ki, təbii iqlim şəraitində baş verən hər hansı bir proseslər, o cümlədən sel, daşqın və digər arzuolunmaz proseslər kənd təsərrüfatında nəzərəçarpacaq dərəcədə irihəcimli fəsadlar doğurur ki, bu da son nəticədə təsərrüfat ilinin sonunda məhsul istehsalının həcminin aşağı düşməsinə gətirib çıxarmaqla ölkənin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsində problemlərin yaranmasına səbəb olur. Bütün bunlar isə ölkənin ərzaq təhlükəsizliyi baxımından əhəmiyyətli risklər doğurur.

İqtisad elmlər doktoru, professor İslam İbrahimov hələ 2005-ci ildə “Kənd təsərrüfatının inki-

şafı və sahibkarlığın formalaşması problemləri” adlı monoqrafiyasında qeyd edirdi ki, xırda mülkiyyətçilər iri torpaq mülkiyyətçilərinin tabeliyinə keçdikcə onlar başqalarını işləməyə və tələbatlarını ödəmək üçün bazarlardan məhsul almaqla istehlakçıya çevrilməyə başlayırlar. Ona görə də bu tarixi prosesi düzgün qiymətləndirməyi zəruri hesab edirik və hazırda keçirilən islahatlarla əlaqədar kəndlərdə yaşayanların yoxsullaşmasına və səbəst işçi qüvvəsinə çevrilmələrinə yol vermək olmaz. Odur ki, sahibkarlıq formaları üzrə istehsalçıların regionlarda təmərküzləşməsi istiqamətləri və ölçüləri reallığa uyğun və düzgün müəyyən edilməlidir. Torpaq sahibləri torpaqlarını satmağa məcbur olduqları halda hər kənddə istehsalçının torpaq almaq həddi müəyyən edilməlidir ki, torpaqları olan mülkiyyətçilərin inhisarçılıq mövqeləri digər xırda fermerlərin mövqelərini sıxışdırmasın. Kənd əhalisinin müəyyən hissəsi mülkiyyətdən məhrum edilməsin [3, s. 54]

Aqrar sahədə sahibkarlığın özünəməxsus spesifik xüsusiyyətlərindən biri də kənd təsərrüfatında iş dövrü ilə istehsal dövrünün bir-biri ilə uzlaşmaması ilə bağlıdır. Kənd təsərrüfatında iş müddəti ilə istehsal dövrünün üst-üstə düşməməsi mahiyyət etibarilə istehsal olunan məhsulun satışından əldə edilən pul gəlirlərinin və mənfəətin təqvim ili ərzində qeyri-bərabər paylanmasına gətirib çıxarır. Bu qəbildən olan destruktiv tendensiyaların effektiv şəkildə neytrallaşdırılmaması və eləcə də sahibkarlıq qurumlarının istehsal prosesindən mənfəət əldə etməsini təmin etmək məqsədi ilə əslində geniş spektrli ixtisaslaşma prosesinin həyata keçirilməsinə ehtiyac vardır. Daha doğrusu, bir neçə istehsal sahələrinin fəaliyyət göstərməsi mahiyyət etibarilə sahibkarlıq qurumlarının təsərrüfat fəaliyyətindən əldə edilən mənfəətin bərabər şəkildə il ərzində paylanmasına gətirib çıxara bilər. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin bu xüsusiyyəti əslində kənd təsərrüfatı istehsalının spesifikasından irəli gəlir və eyni zamanda kənd təsərrüfatında mövsümiliyin mövcudluğundan bəhrələnir.

Doğrudur, bitkiçilikdən fərqli olaraq heyvandarlıqda bu prosesi bu və ya digər şəkildə normallaşdırmaq mümkündür. Çünki heyvandarlıqda istehsal edilən südün demək olar ki, gün ərzində reallaşdırılması mümkündür və istər açıq bazar şəraitində və istərsə də emal müəssisələrinə məhsulların göndərilməsi səbəbindən həmin məhsulların satışından pul gəlirləri və mənfəət əldə edilə bilir. Bitkiçilikdə isə məhsul istehsalı prosesi demək olar ki, ilin sonuna, yay və qismən də payız aylarında yekunlaşdığından əslində ilin digər fəsillərində bitkiçilikdə məhsul istehsalı prosesini həyata keçirmək, xüsusilə qış mövsümü dövründə bitkiçilikdə məhsul istehsalı prosesini həyata keçirmək imkanları məhdud xarakter daşıyır.

İqtisad elmləri doktoru, profesor B.X.Ataşovun fikrincə, aqrar sahədə sahibkarlığın daha da inkişaf etdirilməsi, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və münbitliyinin artırılması rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasının təmin edilməsi sahəsində əsas vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur. [4, s. 323]

Aqrar sahədə sahibkarlığın xarakterik xüsusiyyətlərindən biri də bu sahənin kifayət qədər yüksək fond tutumuna malik olması ilə bağlıdır. Bundan əlavə, aqrar sahədə kapitalın dövriyyə sürətinin aşağı olması mahiyyət etibarilə iqtisadi səmərəliliyin göstəricilərinə də öz təsirini göstərir. Belə ki, rentabellik norması və kapitalın verimlilik səviyyəsi iqtisadiyyatın digər sahələri ilə müqayisədə əhəmiyyətli dərəcədə aşağıdır. Bütün bunlar isə prinsip etibarı ilə aqrar sahədə kapital dövriyyəsinin aşağı olması və digər səbəblər baxımından təsərrüfat-maliyyə fəaliyyətinin iqtisadiyyatın digər sahələri ilə müqayisədə asağı gəlirlilik səviyyəsində olması ilə səciyyələnir. Xüsusilə aqrar sahədə istehsal sahibkarlığının səciyyəvi cəhətlərindən biri də kənd təsərrüfatında istifadə olunan texnikanın daha çox spesifik xarakter daşımasıdır. Belə ki, kənd təsərrüfatında istifadə olunan texnika məhdud istehsal sahələrində istifadə edilə bilir və bu da bütövlükdə həmin texnikanın sonradan digər istehsal sahələrində istifadə imkanlarını məhdudlaşdırır.

Aqrar sahədə sahibkarlığın xarakterik xüsusiyyətlərindən biri də kənd təsərrüfatında istehsal edilən məhsulun tez xarab olması və eləcə də onların daşınmaya davamsız olması ilə bağlıdır. Bütün bunlar isə mahiyyət etibarilə kənd təsərrüfatı məhsullarının sürəti reallaşdırılmasının zəruriliyini şərtləndirir. Qısa müddət ərzində kənd təsərrüfatı məhsulları bazarlarda satılmadığı və yaxud da emal müəssisələrinə təhvil verilmədiyi halda öz keyfiyyətini itirir və bütün bunlar isə məh-

sul satışından əldə edilən pul gəlirlərinin aşağı düşməsinə, mənfəətin azalmasına və son nəticədə istehsalın iqtisadi səmərəlilik göstəricisi olan rentabellik səviyyəsinin aşağı olmasına gətirib çıxarır. İnkişaf etmiş ölkələrin praktikasında aqrar sahədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi məqsədilə kənd təsərrüfatının məhz bu xüsusiyyətini nəzərə alaraq kənd təsərrüfatı məhsullarının satış prosesinin dəstəklənməsi və eləcə də kənd təsərrüfatı məsullarının effektiv şəkildə reallaşdırılması ilə bağlı təminatlı bazar və təminatlı satış qiymətlərinin formalaşdırılması prosesi həyata keçirilir.

Kənd təsərrüfatı məhsullarının tez xarab olması istehsalçıların maliyyə təsərrüfat fəaliyyətinin zərərlə başa çatmasına gətirib çıxardığından inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsullarının təminatlı satış bazarları mövcuddur. Həmin təminatlı satış bazarları əsas etibarilə kənd təsərrüfatı məsullarının dövlət kontaktasiya sistemi vasitəsilə dövlət tərəfindən əldə edilməsini nəzərdə tutur və həmin kantaktasiya əsasında kənd təsərrüfatı məhsullarının dövlətin mövcud saxlama kameralarında və zəruri şəraitlə təmin olunmuş digər texnoloji qurğularda saxlanması təmin edilir və zəruri hallarda bazarlarda əmtəə intervensiyası həyata keçirilir. Əslində bu tip tənzimləmə tədbirlərinin keçirilməsi həm sahibkarların geniş təkrar istehsal rejimində fəaliyyət göstərmək imkanlarını genişləndirir və həm də dövlətin bazara effektiv müdaxiləsi prosesini şərtləndirir. Beləliklə, əmtəə intervensiyalarının, yəni əmtəə müdaxilələrinin həyata keçirilməsi son nəticədə ona gətirib çıxarır ki, ərzaq bazarında məhsulların qiymətlərinin yüksəlməsi istehlakçıların maraqlarına mənfi təsir göstərmir və istehlakçıların daha çox vəsait xərcləmələrinin qarşısını alır. Belə bir halda isə əmtəə intervensiyaları hesabına bazara məhsulların daxil edilməsi bütövlükdə ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi imkanlarına da kifayət qədər müsbət təsir göstərir. Dövlət tərəfindən sahibkarlıq qurumlarından məhsulların tədarük edilməsi, yəni tədarük intervensiyası prosesi təminatlı qiymətlərin reallaşdırılmasına və qiymətlərin tətbiqinə də səbəb olur. Təminatlı qiymətlərin gerçəkləşdirilməsi səbəbindən bütövlükdə istehsalçı prinsip etibarı ilə müflisləşmə təhlükəsindən kənarlaşır, yəni bu təhlükəni yaşamır. Beləliklə, tədarük intervensiyasının və sonradan həmin proseslərin əks formada əmtəə inteqrasiyası vasitəsilə bazara daxil edilməsi prosesi həm istehlakçıların, həm də istehsalçıların maraqlarının təmin edilməsinə istiqamətlənir.

Tədarük intervensiyası sahibkarlıq qurumlarının maliyyə vəziyyətinin yaxşılaşdırılmasına və onların müflisləşməkdən qorunmasına xidmət etdiyi halda, əmtəə inteqrasiyaları istehlak bazarında və xüsusilə ərzaq bazarında yaranmış əmtəə qıtlığının aradan qaldırılması və qiymətlərin sürətli yüksəlişinin qarşısının alınmasına istiqamətlənir və istehlakçıların sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət edir. Bu xüsusilə cəmiyyətdə aztəminatlı əhali təbəqələrinin sosial müdafiəsinin təmin edilməsi baxımından xüsusilə mühüm strateji əhəmiyyətə malikdir. Aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq qurumlarını istehsal edilən kənd təsərrüfatı məhsullarının tez xarab olması kimi xarakterik xüsusiyyətlərindən müdafiə etmək məqsədi ilə onların emal müəssisələri ilə birbaşa əlaqələrinin olması, daha doğrusu müxtəlif mülkiyyət mənsublu kənd təsərrüfatı əmtəə istehsalçıları ilə emal müəssisələri arasında qarşılıqlı inteqrasiya münasibətlərinin formalaşdırılması vacib şərtlərdən biridir. Tarixən emal müəssisələri kənd təsərrüfatı əmtəə istehsalçıları üzərində iqtisadi təzyiqlər yaratmışdır. Sovetlər Birliyi dövründə emal müəssisələri kənd təsərrüfatı müəssələrindən istehsal edilən məhsulların alışı prosesini bu və ya digər şəkildə ləngidirdilər ki, bu da mahiyyət etibarilə məhsulların tez xarab olmasına gətirib çıxarır və məhsulları ucuz qiymətə almağa meyilli olurdular. Beləliklə, oxşar tendensiyalar bazar iqtisadiyyatı şəraitində də özünü daha çox büruzə verir.

Aqrar sahədə sahibkarlıq fəaliyyətinin spesifik xüsusiyyətlərindən biri onların kəskin risklər şəraitində fəaliyyət göstərməsi ilə bağlıdır. Bu risklər isə son nəticədə kənd təsərrüfatı məhsullarının istehsalının həcminə, o cümlədən bitkiçilik məhsullarının istehsal həcminə əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. Kənd təsərrüfatı məhsullarının istehsalı prosesində risklərin səviyyəsinin yüksək olması bu sahəyə kredit qurumları, o cümlədən daxili və xarici investorlar tərəfindən vəsait yatırılması imkanlarının da aşağı düşməsinə səbəb olur. Çünki heç bir investor və kredit qurumu kənd təsərrüfatında mövcud risklərdən sığortalanmadığından bütövlükdə bu sahəyə investisiya qoymağa maraqlı olmur. Bu isə kənd təsərrüfatının təbii iqlim şəraitindən əhəmiyyətli dərəcədə

asılı olması ilə bağlıdır. Kənd təsərrüfatında mövcud riskləri təkcə təbii iqlim şəraiti ilə bağlamaq yetərli deyildir. Belə ki sahənin mövsumlüyü, istehsal vasitələrinin özünəməxsus spesifik xüsusiyyətlərə malik olması, bundan əlavə, kommersiya riskləri, məhsulların tez xarab olması, bəzən aşağı keyfiyyətdə olması, qiymətqoymanın xüsusiyyətləri, resursların yüksək qiymətə əldə edilməsi və bu kimi hallar bütövlükdə sahənin investisiyalaşdırılması imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır.

**İşğaldan azad edilmiş ərazilərdə aqrar sahələrdə sahibkarlığın inkişafının spesifikası**

Başda müzəffər Ali Baş Komandan İlham Əliyev olmaqla Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-sində Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində Zəngilan rayonu Mincivan və Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliklər, Füzuli, Cəbrayıl rayonları, Zəngilanda isə Bartaz, Çığır, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəkliklər azad olunmuşdur. Noyabrın 10-unda Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş Naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması haqqında bəyanat imzalamışlar. Bəyanata əsasən 2020-ci ilin dekabrın 1-dən etibarən Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarılmışdır.

İAEƏ-nin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı ölkə prezidenti və ölkə hökuməti tərəfindən artıq silsilə tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. Belə ki, bu məqsədlə ilk növbədə regionların yeni bölgüsü ilə bağlı ölkə prezidenti Cənab İlham Əliyevin 07 iyul 2021-ci il tarixli sərəncamı qüvvəyə minmişdir.

Ölkə przidentinin sərəncamına əsasən Azərbaycan Respublikası iqtisadi rayonlarının aşağıdakı bölgüsünə dəyişiklik edilmişdir:

- Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);
- Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılmışdır. [1]

Respublikamızda ayrı-ayrı bölgələrin özünəməxsus inkişaf xüsusiyyətlərindən əlavə, eyni zamanda İAEƏ-nin də özünəməxsus xüsusiyyətləri mövcuddur. İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatında sahibkarlığın inkişafının SWOT təhlili aşağıdakı cədvəldə göstərilmişdir. (Cədvəl 1)

İslam İbrahimovun fikirlərini dəstəkləyərək qeyd etmək olar ki, əslində işğaldan azad olunmuş ərazilərin, eləcə də Qarabağın və Şərqi Zəngəzur regionlarının torpaqları uzun müddət işğal altında olduqlarından həmin ərazilərdə torpaq resursları demək olar ki, tam mənası ilə korlanmışdır. Torpaqlar üzərində silahlı qüvvələrin, eləcə də ağır texnikanın mövcudluğu torpaqların demək olar ki, tam mənası ilə tərkibinin aşağı düşməsinə, onun münbitliyinin pozulmasına səbəb olmuşdur. Bundan əlavə, həmin ərazilərdə uzun müddət minaların basdırılması mahiyyət etibarı ilə torpaqlarda təhlükə mənbələrini doğurmuş və eyni zamanda torpaqların iqtisadi cəhətdən öz dəyərini itirməsinə gətirib çıxarmışdır. İAEƏ-də meliorasiya və suvarma sistemlərinin korlanması bütövlükdə həmin torpaqlarda kənd təsərrüfatı fəaliyyətinin həyata keçirilməsinə demək olar ki, zəmin yaratmır. Odur ki, İAEƏ-də ilk növbədə meliorasiya və suvarma sistemlərinin bərpasına istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi vacibdir ki, bu da kənd təsərrüfatında sahibkarlığın inkişafına və məhsul istehsalının həyata keçirilməsinə əlverişli şərait yarada bilərdi. Uzunmüddətli işğal prosesləri İAEƏ-də ekoloji landşaftın vəziyyətinin bərbadlaşmasına gətirib çıxarmışdır. Bütövlükdə həmin ərazilərə kimyəvi və bioloji baxımdan zərərli maddələrin tökülməsi bütövlükdə ərazinin ekoloji landşaftının pozulmasına və ekosistemin kəskin şəkildə pisləşməsinə səbəb olmuşdur. Bu isə ekoloji təhlükəsizliyə əhəmiyyətli dərəcədə təhdid mənbəyi doğurur. Nəzərə almaq lazımdır ki, İAEƏ-də demək olar ki, 60 min hektara qədər meşə massivi tam mənası ilə korlanmışdır.

*Cədvəl 1.*

***İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatında sahibkarlığın inkişafının SWOT təhlili***

| Güclü tərəflər | | Zəif tərəflər | |
|---|---|---|---|
| 1 | İ.a.e.ə-də təbii iqlim şəraitinin bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı baxımından əlverişli olması | 1 | Torpaq resurslarının Silahlı Qüvvələrin və ağır texnikadan istifadə olunması səbəbindən korlanması və münbitliyini itirməsi |
| 2 | İ.a.e.ə-də kənd təsərrüfatında orta və iri əmtəəlik təsərrüfatların yaradılması ilə bağlı imkanların mövcudluğu | 2 | İ.a.e.ə-də təxminən 30 illik işğal fonunda yeni torpaq əmələgəlmə proseslərinin yaranması |
| 3 | İ.a.e.ə-də kənd təsərrüfatının inkişafına iri həcmli investisiyaların yatırılması imkanları | 3 | Minaların basdırılması və digər hərbi faktorların təsiri nəticəsində torpaqların iqtisadi münbitliyini itirməsi |
| 4 | İ.a.e.ə-də turizm imkanlarının əlverişli xarakter daşıması fonunda istehsal edilən ərzaq məhsullarının yerli istehlakın artması perspektivləri | 4 | İ.a.e.ə-də torpaqların meliorasiyası və suvarma sistemlərinin dağılması |
| 5 | İ.a.e.ə-də yaradılacaq nəqliyyat və kommunikasiya sistemlərinin kənd təsərrüfatı və ərzaq məhsullarının logistik proseslərinə əlverişli şərait yaratması | 5 | İ.a.e.ə-də uzunmüddətli işğal dövründə ekoloji balansın pozulması və meşə massivlərinin korlanmaya məruz qalması |
| 6 | İ.a.e.ə-də biznes və investisiya cəlbediciliyinin yüksək olması səbəbindən kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının artımına nail olunması perspektivlərinin yüksək olması | 6 | İ.a.e.ə-də əmlak və infrastruktur sisteminin tamamilə məhv olması |
| 7 | İ.a.e.ə-də balıqçılığın, arıçılığın, mineral su istehsalı sahəsində ixrac potensialının və müqayisəli üstünlüklərin yüksək olması | 7 | İ.a.e.ə-də digər regionlarla iqtisadi inteqrasiya əlaqələrinin faktiki olaraq pozulması |
| 8 | İ.a.e.ə-də kənd təsərrüfatının innovasiyalaşdırılması, modernləşdirilməsi və iqtisadiyyatın şaxələndirilməsi imkanlarının yüksək olması | 8 | İ.a.e.ə-də sosial infrastrukturların məhv edilməsi |
| | **İmkanlar** | | **Təhdidlər** |
| 1 | Ekoloji təmiz məhsullara olan tələbatın artması | 1 | Basdırılan minaların partlama ehtimalları |
| 2 | Sosial şəbəkələrin imkanlarının genişlənməsi | 2 | İxtisaslı mütəxəssislərin cəlb edilməsi sahəsində problemlər |
| 3 | Ağıllı kənd, ağıllı şəhər və ağıllı icma layihələrinin tətbiq edilməsi | 3 | Xüsusilə ilkin dövrlərdə təkmil-əmtəə bazarlarının və infrasturktur sistemlərinin mövcud olmaması |
| 4 | Emal müəssisələrinin, bazar infrastrukturlarının formalaşdırılması | | |
| 5 | İ.a.e.ə-də dövlət dəstəyinin və subsidiyalaşdırılma tədbirlərinin tətbiqi | | |
| 6 | Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının ölkənin digər iqtisadi regionlarına inteqrasiya imkanlarının geniş olması və Zəngəzur dəhlizinin istifadəyə verilməsi fonunda Türkiyə Cümhuriyyətinə inteqrasiya imkanlarının genişlənməsi | | |

Ərazilərdə əmlak və infrastruktur sistemi demək olar ki, tam mənası ilə dağıdıldığından yox dərəcəsindədir və odur ki, bu ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün ilk növbədə infrastruktur sisteminin bərpasına kəskin ehtiyac vardır.

***Nəticə***

İAEƏ-də kənd təsərrüfatında sahibkarlığın inkişafına dəstək verilməsi, subsidiyaların tətbiq edilməsi, kənd təsərrüfatına investisiya qoyuluşlarının həcminin artırılması mühüm əhəmiyyətə malikdir.

Hal-hazırda ərazilərdə kənd təsərrüfatının bərpası, o cümlədən minadan təmizləmə prosesləri həyata keçirilir və eləcə də zəruri infrastruktur təminatının yaradılmasına xüsusi diqqət yetirilir. Fikrimizcə, əhalinin sürətli köçü və kənd təsərrüfatında sahibkarlığın inkişaf etdirilməsinə istiqamətlənmiş islahatlar və struktur dəyişiklikləri həyat keçirildikdən sonra respublikamızın məhz bu bölgəsində, o cümlədən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bir sıra əsas məhsul növləri üzrə kənd təsərrüfatının müqayisəli üstünlüklərini təmin etmək mümkün olacaqdır. Belə bir şəraitdə respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsinə, daxili bazarın yerli məhsullar hesabına inkişaf etdirilməsinə nail olunmalı və eləcə də xarici bazarlara müxtəlif rəqabət qabiliyyətli kənd təsərrüfatı və ərzaq məhsullarının çıxarılmasına nail olmaq mümkün olacaqdır ki, bu da ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsinə əlverişli şərait yarada bilər.

**ƏDƏBİYYAT**

1. “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 07 iyul 2021-ci il.)
2. İ.H.İbrahimov, Aqrar sahənin iqtisadiyyatı, monoqrafiya, Bakı, 2016, 655 səh.
3. İ.H.İbrahimov, Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri, Bakı, 2005, 360 səh.
4. B.X.Ataşov, Aqrar sahədə struktur və səmərəlilik problemləri, nəzəriyyə və praktika, Bakı, 2017, 536 səh.
5. A.F.Abbasov, Ərzaq təhlükəsizliyi, Bakı 2007. 602 s.

***Гафар Мушфиг оглы Багиров***
***докторант, Бакинский Университет Бизнеса,***
***Электронная почта: bagirov.qafar@hotmail.com***

**Особенности развития предпринимательства в аграрном секторе на освобожденных территориях**

***Резюме***

**Цель исследования:** изучить особенности развития предпринимательства в аграрном секторе на освобожденных территориях и выявить факторы, влияющие на развитие предпринимательства.

**Методология исследования -** в работе использовались методы сравнительного анализа, группирования, обобщения.

**Значение применения исследования -** аграрный сектор играет важную роль в обеспечении продовольственной безопасности страны. С этой точки зрения одним из важных условий является развитие предпринимательства в аграрном секторе на освобожденных территориях с учетом специфики развития предпринимательства.

**Результаты исследования -** выявить особенности развития предпринимательства в агропромысленном комплексе на освобожденных территориях, дать рекомендации по устранению деструктивных факторов, влияющих на развитие предпринимательства.

**Оригинальность и научная новизна исследования -** основные принципы и приоритеты преодоления существующих проблем, связанных с формированием и развитием производственного и инновационного предпринимательства в аграрной сфере, формированием благоприятной деловой среды на освобожденных территориях.

***Ключевые слова: аграрный сектор, предпринимательская деятельность в аграрной сфере, предпринимательская среда в аграрной сфере, особенности развития предпринимательства в аграрной сфере.***

***Qafar Mushfig Baghirov***
***PhD Student, Baku Business University,***
***E-mail address: bagirov.qafar@hotmail.com***

## Characteristics of the development of entrepreneurship in the agricultural sector in the liberated territories

***Summary***

**The purpose of the study:** to study the characteristics of the development of entrepreneurship in the agrarian sector in the liberated areas and to identify the factors affecting the development of entrepreneurship.

**Research methodology -** comparative analysis, grouping, generalization methods were used in the research work.

**Significance of the application of the research -** the agricultural sector plays an important role in ensuring food security in the country. From this point of view, one of the important conditions is the development of entrepreneurship in the agrarian sector in the liberated territories, taking into account the specifics of the development of entrepreneurship.

**The results of the study -** to identify the specifics of the development of entrepreneurship in the agricultural sector in the liberated territories, to make recommendations on the elimination of destructive factors affecting the development of entrepreneurship.

**Originality and scientific novelty of the research -** the main principles and priorities for overcoming the existing problems related to the formation and development of production and innovation entrepreneurship in the agricultural sector, the formation of a favorable business environment in the liberated areas.

***Key words: agrarian sector, entrepreneurial activity in agrarian sphere, entrepreneurial environment in agrarian sphere, features of development of entrepreneurship in agrarian sphere.***